**2019-cu ilin yanvar-mart aylarında ölkəmizdə pərakəndə ticarət, iaşə və pullu xidmət sahələrinin inkişafına dair**

2019-cu ilin yanvar-mart aylarında ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində 1.851,5 milyon manatlıq əlavə dəyər yaradılmış və onun ÜDM-də xüsusi çəkisi 10,2 faiz təşkil etmişdir. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə əlavə dəyərin real həcmi 2,7 faiz artmışdır.

Hesabat dövründə əsas kapitala yönəldilmiş bütün vəsaitin 0,4 faizi (10,9 milyon manat) ticarət və nəqliyyat vasitələrinin təmiri sahələrinə sərf edilmişdir. 2019-cu il martın 1-i vəziyyətinə muzdla işləyənlərin sayı iqtisadiyyatın neft sektorunda 34,4 min nəfər, qeyri-neft sektorunda isə 1.499,9 min nəfər olmuşdur, onların 18,8 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahələrində cəmlənmişdir.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar-mart aylarında ölkənin pərakəndə ticarət şəbəkəsindən əhaliyə satılan malların həcmi 2,7 faiz artaraq 8.843,1 milyon manat təşkil etmişdir.

İstehlak mallarının 18,7 faizi hüquqi şəxs statuslu özəl müəssisələrdə, 48,9 faizi fərdi sahibkarlara məxsus ticarət subyektlərində, 32,4 faizi bazar və yarmarkalarda satılmışdır. Hesabat dövründə pərakəndə ticarət şəbəkəsindən bir istehlakçı orta hesabla ayda 298,7 manatlıq və ya 2018-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 9,5 manat çox əmtəə almışdır.

**2019-cu ilin yanvar-mart aylarında pərakəndə ticarət dövriyyəsinin strukturu**



Pərakəndə şəbəkədə satılmış qeyri-ərzaq mallarının həcmi 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz artaraq 4.371,0 milyon manata çatmışdır. Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmində qida məhsulları, içkilər və tütün məmulatları 4.472,1 milyon manata bərabər olmuş və 2018-ci ilin müvafiq dövrünün səviyyəsini real ifadədə 2,4 faiz üstələmişdir.

2019-cu ilin yanvar-mart aylarında hər bir istehlakçı fərdi istehlak məqsədi ilə pərakəndə ticarət müəssisələrində orta hesabla ayda 151,1 manatlıq qida məhsulları, içkilər və tütün məmulatları, 147,6 manatlıq isə qeyri-ərzaq malları almışdır.

Hesabat dövründə istehlakçıların pərakəndə ticarət şəbəkələrində xərclədiyi vəsaitin 45,5 faizi ərzaq məhsullarının, 5,1 faizi içkilər və tütün məmulatlarının, 17,7 faizi toxuculuq malları, geyim və ayaqqabıların, 5,9 faizi elektrik malları və mebelin, 5,6 faizi avtomobil yanacağının, 1,3 faizi əczaçılıq və tibbi malların, 0,7 faizi kompüterlər, telekommunikasiya avadanlıqları, çap məhsullarının, 18,2 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur.




**İaşə xidməti**

2019-cu ilin yanvar-mart aylarında əhaliyə 317,1 milyon manatlıq və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 3,4 faiz çox iaşə xidmətləri göstərilmişdir. Özəl sektorda ictimai iaşə dövriyyəsinin 40,2 faizi hüquqi şəxs statuslu müəssisələrin, 59,8 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti göstərən fərdi sahibkarların payına düşmüşdür. Bu dövr

ərzində hüquqi şəxs statuslu müəssisələrdə iaşə dövriyyəsinin həcmi 126,0 milyon manat olmuşdur.

**Pullu xidmətlər**

2019-cu ilin yanvar-mart aylarında əhaliyə 2.092,6 milyon manatlıq pullu xidmət göstərilmişdir. Hüquqi şəxslər tərəfindən əhaliyə 1.526,3 milyon manat xidmət göstərilmişdir ki, bu da ümumi xidmətlərin 72,9 faizini təşkil edir. Hesabat dövründə hər bir ölkə sakini orta hesabla 212,0 manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə nominal ifadədə 7,3 manat çox müxtəlif növ pullu xidmətlərdən istifadə etmişdir.